# MƏHƏMMƏD İQBAL VƏ AZƏRBAYCAN ƏDƏBİYYATI

**Bəsirə Əzizəliyeva**
Filologiya elmləri doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Azərbaycan
E-mail: besi.azizali@gmail.com

*https://doi.org/10.59849/iscapltmt.2024.226*

**Xülasə.** XIX əsrin sonu – XX əsrin əvvəllərində yaşamış Pakistanın görkəmli mütəfəkkir şairi Məhəmməd İqbalın yaradıcılığında "Gülşən-i Raz-i Cədid" məsnəvisi əhəmiyyətli yer tutur. Məsnəvi M.İqbalın "Zəbur-i – Acəm" kitabına daxildir. "Gülşən-i Raz-i Cədid" mütəfəkkir Azərbaycan şairi Mahmud Şəbustərinin "Gülşəni-raz" əsərinə cavab şəklində yazılmış və M.İqbal burada qoyulmuş on beş sualdan doqquzunu öz əsərində eyni, uyğun və oxşar formada qoymuş və onlara verilən cavabları təqdim etmişdir. Məsnəvidə qoyulmuş məsələlər təsəvvüf təlimində öz əksini tapmış müxtəlif önəmli mövzuların şərhi ilə bağlıdır. Mənlik, təfəkkür, ənəlhəq və digər məsələlərin şərhində M.İqbalın fikirlərinin M.Şəbüstərinin fikirləri ilə, əsasən, üst-üstə düşdüyünü müşahidə edirik. M.İqbal, eyni zamanda yaşadığı zamanın realllıqlarından da çıxış etmiş, ənənəvi mövzulara müasir baxışını ifadə etmiş, Şərq insanlarını cəhalət pərdəsini atmağa dəvət etmişdir.
**Açar sözlər:** Məhəmməd İqbal, "Gülşən-i Raz-i Cədid", M.Şəbüstəri, təfəkkür

## Muhammad Iqbal and Azerbaijan literature

**Basira Azizaliyeva**
Doctor of Philological sciences, associate professor
Institute of Literature named after Nizami Ganjavi, Azerbaijan
E-mail: besi.azizali@gmail.com

**Abstract.** "The Gulshan-i-Raz-i-Jadid" masnavi takes an important place in Muhammad Iqbal's creative works that is Pakistan's prominent thinker poet living in the late XX-early XX centuries. The masnavi includes in M.Iqbal's "Zabur-i-Ajam" book. "The Gulshan-i-Raz-i-Jadid" was written as a response to Mahmud Shabistari's "Gulshan-i Raz" work and M.Iqbal compiled nine questions out of fifteen questions in the same, appropriate and similar form as here and he introduced their responses that were asked in the questions. The matters that were introduced in the masnavi are related to the interpretation of various essential issues that were reflected in the tasavvuf training. We observe that mainly, M.Iqbal's opinions coincide with Mahmud Shabistari's thoughts in the interpretation about stature, thinking, Anā al-Ḥaqq and other topics. At the same time, M.Iqbal touched on the realities of the time period he lived as well, expressed a modern view on traditional topics, invited the Eastern people to get rid of the veil of ignorance.
**Keywords:** Muhammad Iqbal, "The Gulshan-i-Raz-i-Jadid", M.Shabistari, thinking

Məhəmməd İqbalın "Zəbur-i – Acəm" kitabı fars dilində yazılaraq 1927-ci ildə nəşr olunmuşdur. Ədəbi-fəlsəfi xarakterdə olan kitab dörd bölmədən ibarətdir. İlk iki bölmə filosof şairin qəzəllərini əhatə edir, digər iki hissədə isə M.İqbalın "Gülşən-i Raz-i Cədid" və "Bəndəginamə" adlı müstəqil məsnəviləri yer almışdır. "Gülşən-i Raz-i Cədid" – "Yeni Gülşən-i Raz" məsnəvisi XIII-XIV əsrlərdə yaşamış islam dünyasının mütəfəkkir sufi şairi Mahmud Şəbustərinin fars dilində yazdığı "Gülşəni-raz" əsərinə cavab olaraq yazılmışdır.

Mahmud Şəbustərinin əsərinə müraciət edərək ona cavab yazmaq mühüm yaradıcılıq istedadı tələb edirdi. M.İqbalın bu əsəri yazması da təsadüfi deyildi, bu, şairin klassik Şərq ədəbiyyatını, farsdilli şeirin ənənələrini dərindən öyrənməsi, təsəvvüf təlimini mənimsəməsindən irəli gəlirdi. “Böyük Pakistan şairi İqbal fars dilinin Hindistan və Pakistandakı doqquzillik ədəbi ənənələrinə varis olmuşdur. Ondan əvvəl bu dil ilə şeirlər yazan yüzlərcə ədib və şair bu böyük yarımadada bir çox əsərlər qoymuşlar. Bunların adları İran ədəbiyyatında xüsusi bir mövqeyə malikdir. Lakin Məhəmməd İqbal o insanlardandır ki, Hindistanda yavaş-yavaş köhnələn və zəifləyən hind üslublu fars şeirini daha parlaq və daha gözəl olan və Sənai, Fəridəddin Əttar, Cəlallədin Bəlxi (Mövlana) və Mahmud Şəbustəri kimi böyük mütəsəvvif şair tərəfindən formalaşdırılan simvolizm yoluna çevirmişdir. Bu tərzin ərz etdiyi müşkilat şairləri əsrlərcə bu yoldan uzaqlaşdırmış və qorxudmuşdur. Kimsə Əttarın “Hədiqətül Həqiqə” və digər məsnəvilər ilə Mövlananın “Məsnəvi”si və Mahmud Şəbüstərinin “Gülşən-i raz” əsəri ilə yarışa girməyə cəsarət etməmişdir. Pakistanın şeir vadisində bu böyük sahib-zühuru həmin qəhrəmanlığı göstərmiş və haqqından da gəlmişdir... O, farsca şeirlərində əvvəlcə isimlərini zikr etdiyimiz bu böyük mütəsəvvif şairlərin alışılmış və bəyənilmiş yolundan yürümüşdür. Təsəvvüfün son mərhələsinə çatmış və onu Şərq və Qərbin yeni bilik, fəlsəfə və hikməti ilə zənginləşdirmiş, XIX və XX əsrə öz rəngini vermişdir. Bu Sənai və Mövlananı olduğu qədər Hegel, Kant, Şopenhaur, Nitsşe, Buda və Konfusini tanıyan bir ruhun təsəvvüfüdür” [4, s.22-23].

“Gülşən-i Raz-i Cədid” əsəri “Məqsədə giriş”, doqquz sual və onların cavabından ibarətdir. “Məqsədə giriş” bölümündə M.İqbal həm əsəri yazmaq səbəblərini şərh edir, həm də M.Şəbüstərinin yaradıcılıq qüdrətini dəyərləndirir. M.İqbal klassik tərzdə yazsa və ənənələri davam etdirsə də, şairin bütün əsərləri müasir problemlərin qiymətləndirilməsi və onların həlli üçün irəli sürülən fikirlərin ifadəsi məqsədi ilə yazılmışdır. İqbal, geniş mənada, Şərq ruhunu oyandırmağa çalışmışdır, məsnəvinin “Məqsədə giriş” bölümündə də bu məsələləri müşahidə edirik:

*Gözünün qarası üçün baxış və görüş yaratmışam mən,*
*Sənin könlün üçün bir başqa aləm yaratmışam mən.*
*Bütün Şərq yuxuda ikən, həyat tərənnümlərimlə*
*Ulduzların gözündən gizli bir səhər yaratmışam mən* [1, s.87].

M.İqbal belə hesab edir ki, Şərqin həyat atəşi sönmüş, nəfəsi tükənmişdir, şair Şərqi “nəfəs almalayan bir rəsm”ə [1, s.87] bənzədir. Şərqin müasir mərhələdə zövqünü itirməsi, könül davasından məhrum olması, yaradıcı gücünün tərənnüm obyektini müəyyən edə bilməməsi şairi narahat edir. Bu vəziyyətdə şair öz məqsədini M.Şəbüstərinin əsərinə cavab yazmaqla həyata keçirdiyini söyləyir: “Mahmud Şəbüstərinin əsərinə bir nəzirə şəklində bu davanı deşdim. Şeyx Mahmudun zamanından bu yana heç kim bizim canımızı bir qığılcımla tutuşdurmadı. Kəfəni kürəyimizə keçirmiş torpaqda yatdıq. Fəqət bir məhşərin oyanışına, bir fitnənin qopub bizi hərəkətə gətirməsinə şahid olmadıq. O, təbrizli alim (Şeyx Mahmud Şəbüstəri) Çingizin etdiyi fitnənin məhsulu olan neçə qiyamətlər gördü. Mənim gözüm də başqa bir inqlabı gördü, başqa bir günəşin doğuşunu gördü. Və mənanın üzündən örtüyü sıyırdım, zərrənin əlinə bir günəş verdim” [1, s.87-88].

M.İqbal klassik məsnəvilərə uyğun olaraq öz şairlik qüdrətini vəsf etmişdir. “Mən Cəbrail ilə qaynayıb qarışmışam, Gözçü, xəbərçi, qapıçı filan tanımaram” [1, s.88] deyən İqbal gözəlləri vəsf edən “yumşaq qəlbli” şair, “iradəsini itirmiş bir aşiq” olmadığını söyləyir, bununla dünya gözəlliklərini deyil, əbədi həyatı, pərdələr arxasındakı həqiqətləri dilə gətirdiyini ifadə edir: “Mən fəqirəm, lakin Həzrəti Musanın sərvətinə malikəm... Torpağam, lakin səhralara sığmam, suyam, fəqət dəryalara sığmam... Mənim düşüncəmin dənizi sahil tanımaz. Mənim pərdəmin altında talelər gizlidir. Mən qoltuğumun altında qiyamətlər bəsləyirəm. Bir an belə xəlvət bir güşəyə çəkildim, zaval görməz bir cahan yaratdım.

*Mən belə şairlikdən hicab duymam*
*Zira yüz əsr bir Əttarı yetişdirməz* [1, s.88].

İqbal XII əsrin sonu XIII əsrin əvvəllərində yaşamış mütəfəkkir sufi şairi ustadı kimi dəyərləndirir. Bu cəhət də Mahmud Şəbüstərinin əsəri ilə səsləşir. Mütəsəvvüf şairlər üçün F.Əttar yaradıcılığı önəmli bir istinad mənbəyidir. M.Şəbüstəri yazır:

*Mənə şairliyimdən ar gəlməz,*
*Min illər keçsə də, Əttar gəlməz.*
*Əgər təfsir yazam yüzlərlə sirrə,*
*Olar Əttar yanında bircə zərrə* [3, s.19].

Burada şair həm öz qüdrətindən bəs edir, həm də ustadını dəyərləndirir.

M.İqbal bu əsərin haqqdan gələn bir ilhamın nəticəsi olduğunu bildirir. Lakin şair onu bir güşəyə çəkilib mühafizə etməyi deyil, bütün Şərqlə bölüşməyi düşünür: “Mənim torpağıma toxum yerinə könül əkdilər. Mənim lövhümə başqa yazı yazdılar. Mənlik zövqü mənim üçün bal kimi şirindir. Nə deyim, mənə Haqqdan bir ilham vaqi oldu:

*Əvvəla o balı daddım, zövqümü sürdüm, təcrübədən keçirdim*
*Sonra da onu Şərqə dağıtdım* [1, s.89].

Bəzi suallara diqqət yetirək. Birinci sual təfəkkür haqqındadır. M.Şəbüstəri onu heyrətə gətirən təfəkkürün nə olduğu haqqında sual verir:

*Mən oldum bəsteyi-bəndi-təhəyyür,*
*Nədir əslində mənayi-təfəkkür?* [3, s.20].

Eyni sual M.İqbalın əsərində də səslənir: “Əvvəla, öz təfəkkürüm məni heyrətə düşürür. Bu təfəkkür deyilən şey nədir? Bizim yolumuzda şərt olan düşüncədirmi? Nə üçün bəzən ibadət, bəzən də günah olur?” [1, s.89].

M.Şəbüstəri təfəkkür mərhələsinə qədər insanın keçdiyi idrak mərhələlərini göstərir. Təfəkkür Haqqa gedən yoldur, zərrədə mütləqi görməkdir, təfəkkür haqqa doğru təzəkkür, ibrət mərhələlərindən keçərək təsəvvürü təfəkkürə çevirməkdir:

*Təfəkkür həqqə batildən yol etmək,*
*Və həm cüzv içrə mütləq küllü görmək.*
*Həkimlər etdi ol məfhumu təsnif,*
*Ona həm verdilər bir böylə tərif:*
*Yaransa qəlb içində gər təsəvvür,*
*Ona əvvəlcə söylərlər təzəkkür.*
*Təzəkkürdən ki, keçdin, getdi surət,*
*İkinci pilləsi ibrətdir, ibrət.*
*Tədəbbürçün olarsa gər təsəvvür,*
*Ona söylərlər aqillər təfəkkür.*
*Həmin məlum təsəvvürlər ki, vardır,*
*O, naməfhumu təsdiqçün şüardır* [3, s.20].

Təfəkkürü olan arif insanların gözləri qarşısındakı maddi örtüklər qalxar, onlar baxmaq mərhələsindən görmək mərhələsinə keçərlər və gözləri Allahdan başqa, bir şeyi görməz:

*Mühəqqiq tapdı vəhdətdən şühudu,*
*Birinci gördü ol nuri-vücudu.*
*Çün arif şahidi-nurü səfadır,*
*Baxarkən gördüyü yalnız Xudadır* [3, s.21].

Təfəkkürə sahib olmaq, şairə görə, yalnız Allahın köməyi ilə mümkündür, ağıl, məntiq bu yolda həlledici rol daşıya bilməz, çünkü bunları dərk etməkdə insan ağlının sərhədləri mövcuddur. Ona görə də təfəkkürə sahib olmaq üçün Allahdan diləmək lazımdır:

*Ağıl varlıqda etdikcə təvəğğül,*
*Olur dustaqi-zənciri-təsəlsül.*
*Olur ziddiylə zahir cümlə əşya,*
*Və lakin həqqə yoxdur ziddü həmta.*
*Əgər yoxdur ona ya zidd, ya tən,*
*Nə cür, bilməm, onu dərk eyləyirsən?* [3, s.21].

M.Şəbüstəri cavablardan sonra təmsillər və bəzi qaydalar da təqdim etmişdir. M.İqbalın əsərində isə bu cəhətlərə təsadüf olunmur. Birinci sualın cavabından sonra oradakı fikirləri qüvvətləndirmək məqsədi ilə verilən təmsildə də cahanın Haqq nurunun məkanı olduğun, Haqqın maddi dünyada pərdə arxasında olması, bunu təfəkkürə sahib kamil insanların aşkar edə bilməsinin mümkünlüyü və yalnız maddi elmləri oxumuş filosofların bunları görməkdə aciz qaldıqları dilə gətirilir:

*Xülasə, hər bir insan sordu Həqqi,*
*Hərə öz gözlərindən gördü Həqqi.*
*Onunsa zatı hər cür sözdən əfzun,*
*"Təala şənuhu əmma yəqulun"* [3, s.23].

M.İqbala görə, təfəkkür insanın içindəki nurdur. Bu nur insanı aydınladır. Onun bir şuası günəşlərə bədəldir. O, maddi dünyaya sığmır. O, dənizdir, o, dənizi ikiyə bölən Musa əsasıdır: "Onun təcəlliləri Allaha aiddir. Bir gözü öz iç aləminə açılmışdır, özünü görür. Bir gözü ilə öz xarici təzahürünü görür. Əgər bir gözünü bağlayarsa, günahdır. Hər ikisi ilə görmək yolun şərtidir. Öz irmağından dəniz yaradar, inci olub o dənizin dibinə çökər...

*Həyat və zaman onun şüşəsinin içindədir.*
*Lakin o bizə yavaş-yavaş aşikar olar* [1, s.90].

M.Şəbüstəri kimi, M.İqbal da təfəkkürü Allaha gedən yol hesab edir. Bu yol isə insanın daxilindən, mənəviyyatından keçir: "Allahı istəyirsənmi? Özünə daha yaxın ol. Əgər özünü təshirə müvəffəq olarsan, üfüqləri daha asan ələ keçirərsən. Bu cahanı əldə etdiyin gün, nə məsud bir gündür" [1, s.90].

*M.Şəbüstərinin əsərində ikinci sual düşüncə ilə bağlıdır:*
*Düşünmək gah haram, gah da halaldır,*
*Nə cür fikr eyləyək? Ağır sualdır* [3, s.24].

M.İqbalın məsnəvisində də bu sual elmin nə demək olması şəklində ifadə olunur: "Sahili elm olan bu dəniz necə bir dənizdir? O dənizin dibində necə bir inci vucuda gəlmişdir?"

M.Şəbüstəri insana məxsus olan düşüncənin maddi dünyanı hədəf almasını halal, Haqq zatını düşünməyi isə batil hesab edir. Allahın nurundan yaranmış insanların onu maddi göz və obyektləri hədəf alan düşüncəsi ilə dərk etməsi mümkün deyil:

*Düşün nemətləri, bil ki, halaldır,*
*Düşünmək zatını eyni-zəvaldır.*
*Düşünmək Həqq zatın oldu batil,*
*Günorta şəm tutmaqdan nə hasil?*
*İşarətlər çün olmuş ondan aşkar,*
*O ki, olmaz işarətlərlə izhar.*

*Onun nurundan aləm oldu peyda,*
*O ki, olmaz bu aləmdən hüveyda* [3, s.24].

M.Şəbüstəriyə görə, ağıl Haqq nuruna həsrət qalmış, şair bunu günəş nuru ilə izah edir:

*Ağıl Haqq nuruna həsrətdə qaldı,*
*Günəş nuruyla sanki göz qaraldı.*
*Yaxınlaşmışsa gözlər gördüyüylə,*
*Qaraldar gözləri nur öz gücüylə* [3, s.24].

Haqqın nuru günəşə, insan ağlı isə yarasaya bənzədilir. Çünki ağlın Haqq nurunu dərk etməsi gözün Günəşi yaxından görməsi ilə müqayisədə aydın olur. Haqqa doğru gedən yol merac yoludur, bu yolda insan ağlının gücü zəif qalır. Çünki ağıl bu yolda sadəcə bir məqamdır, son deyil. M.Şəbüstəri qaranlığı həqiqətdə Haqqın nuru hesab edir. Günəşə, işığa yaxınlaşdıqca gözlərin qaraldığı kimi, Haqqın nuru da maddi gözü qaraldır, bizim qaranlıq kimi qəbul etdiyimiz nursuzluqda bir Haqq nuru gizlənir: "Həqiqətdə qaranlıq nuri-zatdır" [3, s.25].

M.İqbal elmi bir dəniz, şüur və vukufu onun sahili adlandırır. Elmə yönəlmiş hər kəs onun şüurunun feyzindən aydınlanır. Şüur onu cahana daha da yaxınlaşdırdı və cahan ona sirrini söylədi. Ağıl elmin üzərindəki örtüyü qaldırdı, nitq isə onu daha aydın ifadə etdi. Elm cahana sığmaz, cahan onun məqamlarından biridir. Bizim könlümüz ilə onun arasında gizli bir yol vardır. Cahan bizim onu görməyimiz və elm dərgahına yaxınlaşmamız ilə inkişaf edir, böyüyür: "Hər zərrənin könlündən bir niyaz yüksəlir və deyir ki: "Ey görən, mənə bax, məni gör. Bir baxışının feyzi ilə məni var et. Bir şeyin zatının kəmalı var olmaqdır, bir görən tərəfindən görülməkdir. Biliyimizin huzuruna gəlib şüurumuzla aydınlanmamaq var olmamaq deməkdir. Cahan bizim təcəllilərimizdən başqa bir şey deyil. Biz olmasaq, nə rəng, nə də səs vardır. Sən də cahanın söhbətindən yardım dilə! Baxışını onun qıvrımları ilə tərbiyə et" [1, s.92].

M.İqbal belə hesab edir ki, ağıl və onunla qazanılmış elm kəsrət aləmini öyrənməklə vəhdət aləmini seyr etmək imkanı verir, yəni elm bir vasitədir: "Ağıl gözünü yaxşıca kəsrət aləminə aç ki, vəhdəti tamaşa imkanını əldə edəsən... Mənlik bir ovçudur, günəşi, ayı ovlar. Ay və günəş onun tədbirinin bağında əsirdir.

*Özündəki atəşlə cahanı yanğına ver,*
*Məkan və laməkana gecə basqını ver* [1, s.92].

M.Şəbüstərinin doqquzuncu sualda qoyduğu varlıq və yoxluğun, mümkün və vacibin qovuşması məsələsi M.İqbalın əsərində üçüncü sualda verilmişdir. M.Şəbüstəri yazır:

*Nə cür vüslət tapar varlıqla yoxluq?*
*O vüslətdə nədir azlıq və çoxluq?* [3, s.58].

M.İqbalın əsərində isə sualın qoyuluşu bu şəkildədir: "Mümkün (məxluqat) və vacibin (Allahın) bir-birinə qovuşması nədir? Yaxınlıq, uzaqlıq, çoxluq, azlıq məsələsi nədir?" [1, s.92].

M.Şəbüstəri yazır ki, Haqq ilə məxluqat arasında bir pərdə var. Bu pərdənin qalxması və enməsi ilə yaxınlıq və uzaqlıq müəyyən olunur. Bu fiziki məsafə deyil, Haqqa yaxınlıq üçün insanın özündən, yəni maddi dünyasından uzaqlaşması lazımdır. İnsan özünü tərk etdikcə Haqqın vüsalına qovuşur. Mütləq varlıq mümkün varlıqlarda təzahür etməklə təcəli edir. Təcəli olunan mümkün varlıqlar isə mütləqi az və ya çox əks etdirməsinə görə Haqqa yaxınlıqda azlıq və çoxluq anlayışını ortaya çıxarır:

*O dəm ki, varlığı göstərdi yoxluq,*
*Məsafəyçün yarandı az və çoxluq.*
*Yaxın bir şəxsə nurullah boyaqdır,*
*Uzaq oldur ki, varlıqdan uzaqdır.*
*Özündən gər sənə çatdırsa bir nur,*

*Səni səndən xilas eylər həmin nur* [3, s.58].

İnsanın vacib varlığa qovuşmasında yeganə maneə insanın özüdür. Uzaqlıq varlıqdan uzaq olmaq, həqiqət pərdəsinin arxasında qalmaqdır. Bu pərdəni qaldırmaqla insan mütləq varlığa qovuşur. Haqq insanı nurlandırmaqla onu özündən xilas edir:

*Sənin səndən savayı maneən yox,*
*Sən ol sən barədə fikr eylə çox-çox.*
*Əsir olsan əgər bir gün özündə,*
*Dönər bir pərdəyə aləm gözündə* [3, s.58].

M.İqbal da eyni həqiqətləri səsləndirir. Maddi aləmdə Mütləqi axtarmaq lazım deyil. Göylərin və yerin nuru olan Allahdan başqa mütləq yoxdur. Həqiqətə zaval yoxdur, o məkansızdır. Maddi aləmin sonu, gerçək aləmin başlanğıcı insandan xaricdə deyil, içdədir. Mütləqdə alçaq, yüksək, az, çox məfhumları yoxdur. Bizim ağlımız əbədiyyəti qavraya bilməz. O, müxtəlif mücadilələrlə "bir"i min edər. O topaldır, sükutu sevər. İçi görməz, dışa könül bağlayar. Biz həqiqəti yüz parçaya ayırdığımız üçün sabit ilə səyyar arasında fərq qoyduq. Ağıl naməkan içində məkan yaratdı. Zamanı bir günah kəməri kimi belinə sardı. Burada M.İqbal "Quran"ın Kəhf surəsinin 19-cu ayəsinə istinad edir: "Gəncləri illərlə yatırdığımız kimi, beləcə də onları bir-birindən hal-əhval tutsunlar deyə, oyatdıq. Onların biri dedi: "(Mağarada) nə qədər qaldınız?" Onlar: "Bir gün və ya bir gündən az!" – deyə cavab verdilər. (Onlardan bəzisi isə) belə dedilər: "Qaldığınız müddəti Rəbbiniz daha yaxşı bilir..." [2, s.334]. M.İqbal insanları bu ayə üzərində diqqətlə düşünməyə çağırır. Mütəffəkkir şair cahil mübarizələrindən əl çəkib insanın qəlbinə yaxın olmasını söyləyir, çünki qəlb insanı mütləq varlığa yönəldir:

*Bu mücadilə sevdasından vaz keç də özünə yetiş,*
*Özünü qəlbinə yetir* [1, s.93].

M.İqbala görə, bədən və ruhu iki ayrı tərəf kimi qəbul etmək doğru deyil, haramdır. Kainatın rəmzi ruhun içində gizlidir. Bədən isə həyatın bir halıdır. Şair "məna gəlini sürət xınası ilə bəzənmişdir" [1, s.93] deyərək həqiqətin üzərindəki pərdəni qaldırmağa çağırır:

*Həqiqət üzünü pərdələr,*
*Zira açılmasında ləzzət vardır* [1, s.94].

M.Şəbüstərinin altıncı sualda qoyduğu məsələlər M.İqbalın əsərində dördüncü sualda ifadə olunmuşdur. M.Şəbüstəri yazır:

*Əgər arif də, məruf da Xudadır,*
*Demək torpaqdakı boş iddiadır?* [3, s.49]

M.İqbal isə sualı bu şəkildə təqdim edir: "Yaradan və yaradılan bir-birindən necə ayrıldı ki, biri aləm, digəri Xuda oldu. Əgər tanıyan (arif) və tanınan (məruf) Haqqın zati-paki isə bu bir ovuc torpağın ruhundakı bu sevda nədir?" [1, s.95]

Bu suallarda torpaq deyildikdə insan nəzərdə tutulur. Şairlər o məsələni şərh edirlər ki, Haqqın mütləq varlığından başqa bir varlıq yoxsa, insandakı bu sevda və səylər nədir? M.Şəbüstəri göstərir ki, Haqq öz-özünü tanıyan və öz nurunu insan qəlbində müşahidə edəndir. Şair günəşlə torpağın müqayisəsini verir. Torpaq günəşin nuru ilə əyan olduğu kimi elm mərtəbəsinə qalxan insanın da Haqq nurundan nəsibini almaqla zahir olması mümkündür:

*Xudaya naşükürlük etmə zinhar,*
*Xuda nuruyla bildin ki, Xuda var.*
*Xudasız mə`rifət yox, düz dedin sən,*
*Və lakin güc tapar torpaq günəşdən.*

*Təəccüblü deyildir heç qətiyyən,*
*Günəşdən nura ümmid etsə bir dən.*
*Yada salsan əzəl fitrət məqamın* [3, s.49].

Allahın hidayəti olmadan mərifətə yetişmək mümkün deyil, bu yolda çalışmaq kifayət etmir, Haqqın hidayəti ilə mərifət əhli ariflər cərgəsinə qoşulur. Burada M.Şəbüstəri insanın əzəldə Allah ilə əhdinə dair "Quran" ayəsinə işarə edir:

*Dünən sən bəndəliklə razılaşdın,*
*Bu gün yaddan çıxardın, həddi aşdın.*

*Kitab endirdi ki, sultani-qəffar*
*Xatırlatsın sənə ilk əhdi təkrar* [3, s.49].

"Quran"ın "əl-Əraf" surəsinin 172-ci ayəsində deyilir: "(Ey Peyğəmbərim!) Xatırla ki, bir zaman Rəbbin Adəm oğullarının bellərindən (gələcək) nəsillərini çıxardıb onları özlərinə (bir-birinə) şahid tutaraq: "Mən sizin Rəbbiniz deyiləmmi?" – soruşmuş, onlar da: "Bəli, Rəbbimizsən!" – deyə cavab vermişdilər" [2, s.181]. Buna görə də şair insanın öz əzəlinə dönməyə, əhdinə sədaqətli olmağa dəvət edir, bunu yeganə yol hesab edir:

*Əgər sən Həqqi görmüşdünsə bir an,*
*Demək ki, bir də görməkçün var imkan.*
*Bu gün burda sifətlərdən ol agah,*
*Sabah zatıyla məşhud olsun Allah.*
*Budur yol, başqa yol getsən əbəsdir,*
*Kitabdan dinlə "la təhdi", bu bəsdir* [3, s.49].

M.İqbal düşünür ki, zati-Haqqın nuru həm xəlvətdə, həm də zühürdadır. Yaradan ilə münasibətimiz fərqli şəkildə təzahür edir: "Bəzən bizə yabançı olur, bəzən də bizi bir saz kimi çalar. Bəzən onun daşdan bir heykəlini yaradarıq, bəzən də onu görmədən səcdələrə qapanırıq. Bəzən yaradılışın hər pərdəsini parçalayıb yarın camalına tamaşa edərik" [1, s.95-96]. M.İqbala görə, bir ovuc torpaq olan insanın dəyəri onun içindəki sevdadır. Bu sevda insanın mənliyinin axtarışıdır, çünki mənliyinə qovuşan insan Haqqın nuruna yetişər: "Bu bir ovuc torpağın başında nə sevda vardır ki, onun içini aydınladır… Mənliyi bir imtahan dərdinə saldı…

*Mənliyi sıx-sıx qucaqlamaq*
*Faniliyi bəqa ilə birləşdirməkdir"* [1, s.96].

İnsan mənliyinə doğru sonsuz bir yolun yolçusudur: "Yolçu əbədi yaşa, əbədi öl. Önünə çıxan cahanı tanı və öyrən. Bizim sonumuz onun dənizində itmək deyildir. Əgər sən onu ələ keçirərsən, fanilikdən qurtararsan.

*Mənliyin mənliyə sığması muhaldır,*
*Mənliyin özü olmaq kəmaldır"* [1, s.96].

M.İqbal mənlik haqqındakı fikirlərini beşinci sualda davam etdirir. M.Şəbüstəri isə bunu üçüncü sualda təqdim etmişdir.

M.Şəbüstəri yazır:

*Mənə məndən xəbər ver "mən" sözündə*
*Neçin bəs söylənir – seyr et özündə* [3, s.38].

M.İqbal da sualı eyni şəkildə qoymuşdur: "Mən kiməm mənə məndən xəbər ver. Özündə səfər etmək nə deməkdir?" [1, s.96]

M.Şəbüstəri məni belə müəyyən edir:

*Soruşdun ki, mənə məndən xəbər ver,*
*Kim imiş mən, həmin məndən xəbər ver.*
*Dönüb ta "mən" sözü olmuş ibarə,*
*Vücudi-mütləqə eylər işarə.*
*Təəyyündən müəyyəndir həqiqət,*
*Təəyün ol səbəbdən "mən"dir əlbət* [3, s.38].

Mən mütləq və nisbi xarakter daşıyır, bu da mütləq və mövcud varlığı ifadə etməsinə görə dəyişir. Təəyün mövcud varlıqdır. Onda mütləq varlığın məni təcəlli edir. Təəyün özündə təzahür edən mənə görə mən adlanır, lakin ondakı mən mövcud varlığın mənidir. Mütləq mənada mən isə Haqqdır.

M.Şəbüstəri mütləq varlığı şərh etmək üçün onu çıraqla müqayisə edir. Şüşənin içində yanan çıraq ətrafa müxtəlif rəngdə nur saçır. Mütləq varlığın nuru da mövcud varlıqlarda, təəyündə təcəlli edir, mənlərə çevrilir:

*Mən ilə sən ki, olduq zatə ariz,*
*Çırağın şişəsindən zərrəyik biz.*
*Tamamən eyni nurdur cism ilə can,*
*Düşər gah aynadan, gah da çıraqdan* [3, s.38].

İnsanın vəzifəsi özünü tanımaq, cahandan əl çəkərək biməkan olmaq, içindəki mənə doğru yürümək və qəlbindəki mütləq mənin nuruna qovuşmaqdır:

*Həmin "mən" cismü candan oldu üstün,*
*Cisimlə can "mən"in bir cüzvüdür çün.*
*Deyil heç "mən" sözü insanə məxsus,*
*Deyirsən sənsə - olmuş canə məxsus.*
*Burax bir yol cəhanı, biməkan ol,*
*Özün öz daxilində bir cəhan ol* [3, s. 38].

M.İqbal belə hesab edir ki, torpaqdan yaranmış vücud mənliyin pərdəsidir. Mənlik bu pərdədən günəş kimi doğar. Onun məşriqi bizim sinəmizin içindədir. Bizim torpağımızı aydınladan onun cövhəridir. Onu aramaq üçün insanın daxilinə yönəlməsi şərtdir: "Sən "Mənə məndən xəbər ver" deyirsən, özünə səfər etməyin mənasını soruşursan... Özünə səfər edərək "mən"in nə olduğunu gör. Özünə səfər etmək nədir?.. Bir anlıq iztirab ilə əbədiyyətə malik olmaq, günəş işığı olmadan hər şeyə tamaşa etmək deməkdir... Onun laməkanından o köks içində, cahan da ovuc içində olduğu halda avdet etmək deməkdir" [1, s. 97]. M.İqbal "mən"in əzəmətini "Quran"ın əl-Əhzab surəsinin 72-ci ayəsinin aydın şəkildə şərh etdiyini xatırladır. Ayədə deyilir: "Biz əmanəti (Allaha itaət və ibadəti, şəri hökmləri yerinə yetirməyi) göylərə, yerə və dağlara təklif etdik. Onlar onu yüklənməkdən (götürüb özləri ilə daşımaqdan) qorxub çəkindilər. Onu insan yükləndi" [2, s. 518]. M.İqbal da belə hesab edir ki, Haqqın nurunun təcəllisi olan mən insanın qəlbinə yerləşmiş, "bir ovuc torpağa" [1, s.98] nəsib olmuşdur. Bu mən mütləq varlığın, Allahın əmanətidir. İnsan onu görmək üçün baxışını qəlbinə doğru yönəltməlidir:

*Qafil olma, o sənə əmanət edilmişdir*
*Necə cahilsən ki, özünü görməyirsən* [1, s. 98].

Digər suallar və cavablarda da iki mütəfəkkir şairin fikir uyğunluğunu müşahidə edirik.

**Ədəbiyyat**

1. İkbal, M. Kulluk Kitabı (Hicaz Armağanı, Yeni Gülşen-i Raz, Musa Vuruşu). – İstanbul: Timaş, 2017.
2. Qurani-Kərim. (Tər edən: Z.M.Bünyadov, B.M.Məmmədəliyev), – Bakı: 2000.
3. Şəbüstəri, M. Gülşəni-raz (Ön söz, tərcümə və şərh: Rüstəm Tofiq). – Bakı: Elm və təhsil, 2013.
4. Tarlan Ə.N. Ön söz. Muhammad İkbal. Şarktan Haber (Zebur-i Acem, Peyam-i Maşrik). – İstanbul: Sufi Kitap, 2006.